Sabir RUSTƏMXANLI

Övvəli ötən saymızda

Güntay Gəncalpla dialoqumuzun davamı

1918-ci ildə ermoni və bolşeviklər tərəfindən törədilmiş soyqırımı, 1920-ci ildə Qırmızı ordunun küllovi qırğınları, Azərbaycan aydınlarına qarşı on illərlə davam edən Stalin repressiyası, tarixi torpaqlarımızdan kütləvi şəkildə qovulmağımız, müharibələr, ümumi milli müstəqilliyimiz, soyadınız, ulu babanızın dəyişdirilməsi, onu öz kökündən qoparmaq üçün ardıcıl şəkildə həyata keçirilən mənəvi repressiyalar... nəhayət, 1988-ci ildə başlayan Qarabağ işğalı. Bütün bunlar düşünülmüş bir siyasət fəlsəfəsinin ayrı-ayrı pərdələridir. Mən sonuncu "Akademikin son əsəri" adlı romanımı məhz bu genetik savaşa həsr etmişəm. Azərbaycanın soyla-köklü əllolarının yox edilməsi, uzun ömürlülərin yaşadığı Ermənistanın yaylalarından və dağlıq ərazilərimizdən Sibirə, Qazaxıstana sürgünlər və mənəvi aşındırma planları... hamısı bu genetik savaşın tərkib hissələridir. Sən də dub-rub-drub eyni bolşeviklərin təbliğatının davamı kimi "ruslar bizə modernizyat gətirdi" - deyirsən. Bunun əvəzinə, "Çar Rusiyası monim torpağımda Ermənistan dövləti qurdu və bugünkü Qarabağ faciəsi do o siyasətin davamıdır", - demədiyik. Rusiya bütün 19-cu yüzil boyu Azərbaycan türklərinə Qafqaz xristianlarından fərqli bir baxış sərgiləədi, sünni-şiə ayrılığını körükləədi, gənclərimizi ordulara komar saxladı, tarixi-mizi saxtalaşdırdı, qəzet-jurnal açmağa, milli oyanışa imkan vermədi, Cənubi Qafqazı türklərdən təmizləmək xətti tutdu, qədim qonşular olan ermənilərlo türkləri, gürcüləri dəfələrlo qanlı savaşlara sürüklədi.

Mən bizim dialoqumuzda sonadək səmimiyyəm və doğrudan da noticədə müəyyən huqiqatləri olduğu kimi göməyimizə yardım etmək istəyirəm. Təəssüf ki, sonin Feys statuslarında türklə və keçmiş dövlətlərimizi ardıcıl bir şəqildəmaq və düşmən dəyirmanına su tökmək meyli var. Bu, bizim söhbətimizin ruhunu dəyişdirir.

Güntay! Bu dünyada heç kim, hətta türklərı sevməyən ermənilər do klassik türk ədəbiyyatını məsqara, söz yığını adlandırmaqa cəsarət etməmişdir. Bu, o qədar adətdəki, əsaasız, yekəxana yanaşmadır ki, mən bunun tərsini sübut etməyi gülünc hesab edirəm. Lakin, insan sevgisinə və nifrətə olmaz noğmələr qoşmuş dədələrimizin ruhuna dil uzatma! Keçmişinin, dilinin, böyüklərinin qədrini bilməyən yaddaşsız aydınların cəzasını bütün millət çəkir...

Milləti yönəldən, onun elitası, şəbəqə dədələridir. Azərbaycanda bu təbəqənin çoxu halo do öz ana dillərini və milli mədəniyyətlərini pis bilirlər, milli idealarımızı yetərincə dərk etmirlər, bəzilərı ömürləri boyu min beş yüz illik Azərbaycan ədəbiyyatından bir nümunə oxumamışlar.

İrandakı ziyalıların da durumunu son monden yaxşı bilirsən. Buna göro do bizim dədəmiz təkcə xarici işğalçılara qarşı savaş deyil, hom do içimizdəki kimliksizlərlə belli elmayanlarla savaşdır.

Bu gün təkcə meyvələrin və digər qida məhsullarının genləri dəyişdirilmir. Hom do milləttərin genl dəyişdirilir, "toxunmuş bankları"nın yetirmələrinin sayı 3 milyon-dən artır; adi azərbaycanlı olan, amma kimliklərı belli olmayan, vətən üçün savaşmağı ağılsızlıq saydıqları ucundan belo keçirməyən yeni bir nəsil yetişdirilir.

Savaş vaxtı bir dövlətin və milləttin içində düşmənə fürsət verən mövzular anındaca qapadılmalıdır, zoraki yolla yox, problemin halli yolu ilə. Etnik söz-söhbətləri aradan qaldırmaq üçün Azərbaycan türklərinə qarşı aşkarlığa və qəzəb doğuran aşağılamaqa son qoyulmalıdır. Bu sözlər sona da aiddir.

Milli intibah milli monliyin dərkindən və yaxşılığını kimi, milli oxlaqdan, milli idealarını yaşatmaqdan, vətən sevgisindən və hoqiqətin gözünə düz baxmaqdan keçir. Monim görüşümdə milli oxlaq yalnız fəlsəfi kateqoriya deyil, doğrudan ölümə hoyatın demək olar ki, bütün sahələrini obato edən bir dayar, keyfiyyət ölçüsü. bir dirilik elliksiridir. Buna göro do bir millətə mahv etmək istəyondə ilk növbədə onun oxlaqını pozmağa, tarixini unutdurmağa, üroyində yarımçılıq, ikinci dərəcəli olmaz duyğusunu gösərtməyo çalışırlar. Milliotin gələcəyi yalnızca milli bir comiyyətin qurulmasından, tarbiyəsi və yetişdirilməsindən başlanır.

Bu işdə ilk dahiyanə addımları Mirzə Fətəli Axundzadə atmışdır. Sonra XIX yüzilin sonunda və XX yüzilin ilk iyirmi ilində yaşamış bütün böyük ziyalılarımız, yazarlar, qənzəlilər, ictimai-siyasi xadimlər bu ideala sorhədlərini müəyyənləşdirmişlər, onu dünya siyasətino uyarlı bir hala gotirmək və xalqa çatdırmaq yolunda yorulmadan çalışıblar. 1918-ci ildə Xalq Cümhuriyyoti bu ideal üzərində qurulub. Lakin 1920-ci ilin iyidi bu ideala düşmən kəsildi, onun tərəfdarlarının sayı 1-ə endirildi, təşkilatçılar isə nəfəslərinin nəsli kəsildi. 70 il pambıqla baş kəsən, tez-tez dəyişilən və ölkə əhalisini çaşqınlığa içindo buraxan bir sovet ideologiyası dövrü başlandı. Lakin xalqımızın müstəqillik və azadlıq idealını tamamilo unutdura və mahv edə bilmədilər.

Azərbaycan türk millatinin ideali milliotçilik üstündə köklənməyib və xalqı da zorla belo ayrımcılıq havasına kökləmək olmaz. Yuxarıda sadaladığım kimi, bizim milli xarakterimizin ən vacib özəlliklərindən biri bizim qardaşlıq ruhumuzdur. Azərbaycan politrası çoxrəngilidir, burda xeyli azsayılı xalq yaşayır. Onları vahid Vətən sevgisi, vahid istək və mədəniyyət birləşdirir, biz eyni böyük irsin, eyni tarixin, eyni ağrıların, eyni sevincin və kədərin övladları və sahibləriyik. Çoxdan qaynayıb-qarışmışıq, qaşınmayan yerdən qan çıxarılar olmasa, heç bir ayrı-seçkiliyimiz yoxdur, oksino, onsino üzro, azsayılı xalqlarin nümayəndələrino hom elmdo, hom idarəçilikdo daha çox qayğı göstərilir; hor birinin haqqı qorunur və qorunmalıdır. "Azərbaycanlı" milləti vətəndaşlıq kimliyidir və biz bu kimliyin şərafini bir şəkildə və hor kəsin ali kimliyino sayğı göstərə-göstərə qorumalıyıq.

Türkçülük bir irqçilik, müstəsnalıq, özünü başqalarına qarşı qoymaq deyil! Türkçülüyün ulusal varlığın dərki yolu ilo dövlətin dayaqlarının qorunmasına xidmət etdiyini bir daha xatırladırəm. Türkçülük Türkiyo, İran, Mərkəzi Asiya və bütövlükdo türk dünyasını və Avrasiyanın böyük bir hissosini birləşdirən, yaxınlaşdıran güc ola-

Onu qorumaq hamımızın borcudur. Lakin qorunmaq anlayışını hərə bir cür başa düşür. Mon sahvlərimizi gözlətmədən, kosloliklərimizi sağalda-sağalda, fürsətini açıq, mərdlikdo deyil-deyo, xalqın mənafeyini qoruya-qoruya yaşamağın tərəfdarıyam və homişo do belo yaşamışam.

Sevgini, sadaqəti işin bildirərlər, bo-ğazdan yuxarı müddəhiyalıq yox. Monca, biz öz kişilik, mərdlik, düzgünlük anonollarimizo daha sıx bağlanmaq istəyirikso, bütün çoxmərtəbəli yaltaqlıq epitetlərino son qoyulmalıdır, insan özəsiyyətinin ucalığı qorunmalıdır və bu işin umrı do birbaşa ölkə rəhbərliyinin gölməlidir.

1 sentyabr 2017

10-cu, sonuncu məktub

No qədər çətin olsa da, hor tənəzzüldən, hor çətinlikdən bir çıxış yolu var.

Almanlar Birinci Dünya müharibəsinin sonra çox ağır monəvi-psixoloji vəziyyətə düşmüşdülər. Lakin özlərində güc tapıb on-on beş ildo dirçəlorək Avropanın lidorino çevrilo bildilər.

II silsilə

Milli intibah milli mənlikdən keçir

Bizim do yüksəliş potensialımız böyük dür, sadəcə horəkoterici qüvvələr tapılmalı və işə salınmalıdır.

Azərbaycanın dirçəlişi bir çox xarici və daxili amillərdən asılıdır. Ilk növbədə dünyanın mürəkkəb münasibətlər sistemində öz yerimizi daqiq müəyyənləşdirməliyik. "Yeni dünya düzonində" Azərbaycanın yeri harda olacaq? İran-ABŞ münaqişəsi Qüzey və Güney arasındakı ayrılığın ardıcıl qaldırılmasına təsir göstərə bilərmi? Biz bu coğrafiyanın talyini dayişmək istəyənlərin diqqətini nəco cəlb etməliyik, belo bir dəyişiklik bizə sərf edirmi və hamin proqramların ali niyyoti nodir? Beynəlxalq sə-mayo Azərbaycana münasibətdo no qədər insafdır və aparılan sərvətimizin yerində no qədər gözlənilir?

Türkiyo və türk dövlətlərilo olaqaların iqtisadi siyasi birliyo çevrilmək yolunda hara qədər irəliləyo bilərik? Ermənistanın işğalına hansı yollarla son qoya, torpaqlarımızı nəco azad edo bilərik? Iran və Güney Azərbaycanla münasibətlərimizi nəco qurmalıyıq?

Nəhayət, düşdüyümüz vəziyyətdo dünyadakı Azərbaycan türklərini hansı gücün, qüvvonin ortaqlına toparlamalı, bu parokondəlik içində ulusal birliyi nəco qorumalıyıq?

Milliotin mənliyi onun dövləti ilo qaynayır. Yeni yaranan türk dövlətləri öz birliklərini gücləndirməklo hom do dövlətlərini gücləndirəcəklər. Bu işdo milli psixologiya

nəzərə alınmalıdır. Dünya tarixində ayrıca bir türk formasiyası da olub. Öz böyüklüyümüzü bilməyincə, tariximizi, mədəniyyətimizi öyrənməyincə, özümüzə sənin kimi aşağılayıcı bir gözlə baxdıqca fəlakətlər bizi izləyəcək. Bu gün türk dövlətlərinin zirvə toplantılarının qərarlarında bizim vaxtilə yazdığımız və Uluslararası Türk Dünyası Konfranslarında - Türkiyədə, ABŞ-da dediyimiz bir sıra ideya və təkliflər öz əksini tapıb.

Nəzərdə tutulan layihələrin həyata keçirilməsi üçün real mexanizmlər qurulmalıdır. Avrasiya deyilən ideyanın mərkəzində türk dünyası dayanmalıdır. Bu bölgədə Avropa Birliyinə bənzər Türk Birliyinin qurulmasının vaxtı çatmışdır. Türk aləminin zəngin sərvəti, böyük insan ehtiyatları, yaşamaq üçün gözəl şəraiti imperialist güclərə dinclik vermir. Sovetlərin neçə yerə böldüyü Türküstan 25-30 ildə birləşmək, yaxınlaşmaq istiqamətində uzun məsafə qət edə bilməmişdir. Burada qurulan dörd türk dövləti arasında süni surətdə yaradılmış konfliktlər onların inteqrasiyasına əngəl törədir və köhnə SSRİ xiffətini gücləndirir; İran cənubdan, Çin şərqdən öz nüfuzunu bu bölgədə yaymağa can atır. Bütün bu cəhdlərin, əzələ nümayişlərinin tək cavabi Türk Birliyinin qurulmasıdır.

Belə bir birliyin işlək mexanizmlərinin yaradılması ləngiyir.

Türk məmləkətlərinin kültür siyasəti hazırlanmalıdır. Hansı ölkə hansı mədəniyyət sahəsini daha yaxşı qoruyursa, o sahənin mərkəzinə çevrilməlidir. Türk respublikalarında bu sahələrdə görülən işlər ümumiləşdirilməli və əlaqələndirilməlidir.

Mən Türkviziyanın (Türkvizion) iki mahnı yarışında qonaq olmuşam. Tam məsuliyyətlə deyirəm: Avropa mahnı yarışından qat-qat zəngin, parlaq və təsirli idi.

Ayrıca türk mədəniyyət biblioqrafiyası yaradılsa, yaxşı olar.

Ümumtürk ədəbi dili, ortaq əlifba zəruridir. Bu iş gözləməklə görülməz, dəfələrlə dediyim kimi, özək olaraq Türkiyə türkcəsi götürülməli və bütün türk dövlətlərində ibtidai məktəblərdə öyrədilməlidir; sonra bu dil yerli ləhcələr hesabına daha da zənginləşəcək və hər şey qaydasına düşəcək...

Ortaq dil mərkəzi yaradıla bilər.

Əlifba siyasət işidir. Bu işi dövlət başçıları həll etməlidir. Alimlərin ümidinə buraxılsa, ləhcə fərqlərini tam əks etdirən onlarla əlifba variantı yaranacaqdır. Bu elmi, milli və siyasi cəhətdən ziyanlı bir yoldur. Belə əlifbanın kiril-dən heç bir fərqi olmaz.

Bölmələri bütün türk dövlətlərində olan Vahid Türk Dünyası Mərkəzi qurulmalıdır.

Böyük türk ensiklopediyasına ehtiyac var.

Ümumtürk informasiya sistemi, müştərək qəzet, dərgi və televiziya sadaladığımız məsələlərin həlli üçün zəruridir.

Güney Azərbaycan üzərinə siyasətdən uzaq, yalnız türk dili və mədəniyyətini öyrədən bir uşaq və gənclər televiziyasının açılması tarixi bir iş olar. Çin, rus, hind, fars, ərəb aləmində, Avropa ölkələrində türk mədəniyyətinin izləri öyrənilməlidir.

Xarici ölkələrdəki çoxsaylı türk kültür dərnəklərinin əlaqələndirilməsi zəruridir.

Dünya muzeylərində İran adına sərgilənən türk eksponatlarının ümumi kataloqu nəşr etdirilib, həmin muzeylərə göndərilməli və yayılmalıdır. Bu əsərlərin geri qaytarılması yolları araşdırılmalıdır.

Türk dövlətlərinin məktəbləri üçün vahid tarix, ədəbiyyat, mədəniyyət, coğrafiya dərslikləri, müqayisəli lüğətlər hazırlanıb nəşr etdirilməlidir.

Vahid elmi-mədəni terminalogiya sistemi qurulmalı və dillərimizin bundan sonrakı termin yaradıcılığı əlaqələndirilməlidir.

Davamı olacaq

Ədəbiyyat qəzeti.- 2017.- 11 noyabr.- S. 25.